**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MUSTAFA ÇƏMƏNLİNİN YARADICILIĞI

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Aynurə Nizami qızı Babayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Sumqayıt – 2025**

Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Filologiya elmləri doktoru, professor
**Rafiq Yusif oğlu Əliyev**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, professor
**Yaqub Məhərrəm oğlu Babayev**

Filologiya elmləri doktoru, dosent
**Elnarə Seydulla qızı Akimova**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Törə Kamal qızı Məmmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Sumqayıt Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ______ Filologiya elmləri doktoru, dosent
**Nigar Vəliş qızı İsgəndərova**

Dissertasiya şurasının elmi katibi: ______ Filologiya üzrə fəlsəfə doktoru
**Mətanət Hidayət qızı Məhərrəmova**

Elmi seminarın sədri: ______ Filologiya elmləri doktoru, dosent
**Hüseynova Arzu Hüseyn qızı**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan ədəbiyyatının müasir dövrünün öyrənilməsi, bu mərhələnin formalaşmasında mühüm xidmətləri olan yazıçı və şairlərin həyat və yaradıcılığının yeni ideoloji müstəvidə araşdırılması, eləcə də ədəbi-nəzəri fikrin çağdaş tələbləri nöqteyi-nəzərindən dəyərləndirilməsi ədəbiyyatşünaslığın əsas tədqiqat istiqamətlərindən biri kimi elmi əhəmiyyət daşıyır. Bu baxımdan, müasir ədəbi prosesdə öz dəsti-xətti ilə seçilən və araşdırma üçün zəngin material təqdim edən yazıçılardan biri də Mustafa Çəmənlidir. Onun müxtəlif janrlarda qələmə aldığı, fərqli mövzu və problemləri əhatə edən əsərləri, təəssüf ki, bu günə qədər sistemli şəkildə elmi təhlilə cəlb olunmamış, onların ideya-məzmun xüsusiyyətləri ətraflı şəkildə qiymətləndirilməmişdir. Lakin yazıçının xalqın taleyüklü məsələlərini əks etdirən, bədii cəhətdən diqqətəlayiq yaradıcılığının ümumi ədəbi proses çərçivəsində tədqiqi həm elmi-nəzəri, həm də tənqidi baxımdan əhəmiyyətlidir.

M.Çəmənlinin bədii və sənədli irsinə dair məqalə və resenziyalar yazılsa da, onlarda ədəbi-tənqidi təhlil zəifdir, müəllifin ədəbi prosesdə tutduğu mövqe aydınlaşdırılmamış və ümumiləşdirilmiş nəticələr verilməmişdir. Bütöv və sistemli şəkildə tədqiqata cəlb olunmadığı üçün onun bədii fəailiyyəti haqqında elmi təsəvvür lazımi səviyyədə formalaşmamışdır. Bu səbəbdən də M.Çəmənli yaradıcılığına həsr olunmuş dissertasiya işi aktuallıq kəsb edir.

Tədqiqatın əsas mənbələrini M.Çəmənlinin ədəbi irsi, şəxsi arxivi – hekayə, povest, roman və sənədli nəsri, ədib haqqında yazılmış müxtəlif səpkili məqalələr – *“Ölüm mələyi”* [1], *“M.Çəmənli yaradıcılığında janr xüsusiyyətləri”* [2], *“Ürəklərdə ucalan abidə”* [3],

---

[1] Axundlu, Y.İ. Ölüm mələyi // 525-ci qəzet. – 2012, 11 avqust. – s.16

[2]Bərdəli, B.H. M.Çəmənli yaradıcılığında janr xüsusiyyətləri // Filologiya məsələləri, –Bakı: Elm və təhsil. –2015. №5, – 454 s.

[3] Əmirli, Ə.M. Ölməz əsərin bir əsrlik səhnə salnaməsi // 525-ci qəzet. – 2009, 30 yanvar. – s.7

*“Tarixi romanda “ideoloji xətt”, tarixi fakt və ona münasibət”* [4], *“Sənət hekayələri”ndəki insan taleləri”* [5], *“Qan yaddaşımızı oyadan roman”* [6], *“Müstəqillik illərində Mustafa Çəmənli yaradıcılığında tarixi əsərlər”* [7] və s. təşkil edir.

Müxtəlif ədəbi janrlara müraciət edən yazıçı-publisist Azərbaycan gerçəkliyinin üç siyasi-iqtisadi dövrünü yaşamış və yaradıcılığında hər birinin ziddiyyətli tərəflərinin bədii mənzərəsini yaratmağa nail olmuş, fərqli və bəzi məqamlarda oxşar dövrlərin yaxşı və ya pis tərəflərini araşdırmaq və təhlil etmək üçün zəngin material ərsəyə gətirmişdir. Bu kimi xüsusiyyətlər onun yaradıcılığının tədqiqini daha da aktuallaşdırır.

M.Çəmənlinin, əsasən, ənənəvi üslubda yazılmış bədii nümunələri müasirlik, tarixilik baxımından milli, mənəvi, bəşəri dəyərləri özündə birləşdirərək bütöv bir şəkildə Azərbaycan xalqının həyat tərzini, düşüncəsini əks etdirir və dərin müşahidə, milli kökə bağlılıq, özünəqayıdış, özünüdəyərləndirmə kimi xüsusiyyətləri ilə seçilir. “Sovet dövrünün qəhrəmanı”ndan uzaqlaşaraq Azərbaycan tarixinə, dövlətçiliyinə, incəsənətinə, ədəbiyyatına köklənən qəhrəmanların bədii obrazlarını yaratmaq istəyi onun yaradıcılığının müsbət cəhətlərindən biri kimi diqqəti cəlb edir. Araşdırmalar göstərir ki, Mustafa Çəmənli hər zaman öz yaradıcılığında, zaman və şəraitdən asılı olmayaraq, ədəbiyyatın əsas kateqoriyalarından biri olan millilik prinsipini əsas tutmuşdur.

Yazıçı sənədli nəsrə ilk dəfə 1989-cu ildə (“Şövkət Ələkbərova”) müraciət etmiş və bu günə qədər non-fikşn (qeyri-bədii ədəbiyyat) üslubunda yazılmış ondan çox əsəri çap edilmişdir. XX əsrin mədəni mühitini, ağrılı tarixini əks etdirən əsərləri ilə o, öz

---

[4] Cabbarlı, N. Tarixi romanda “ideoloji xətt”, tarixi fakt və ona münasibət [Elektron resurs] // –Bakı, 12.12.2017. –URL: http://www.azyb.az/index.php/criticism/post/93

[5] Niyarlı, M. “Sənət hekayələri”ndəki insan taleləri: [Elektron resurs] / 10 sentyabr, 2015. URL: http://senet.az/sənət-hekayələrindəki-insan-taleləri/

[6] Yusifli, V.Ə. Qan yaddaşımızı oyadan roman. “Xallı gürzə” romanına ön söz. / –Bakı: Kitab klubu, –2016. –392 s.

[7] Qəmbərova G.R. Müstəqillik illərində Mustafa Çəmənli yaradıcılığında tarixi əsərlər / G.M.Qəmbərova // Ədalət. –2015, 12,13 noyabr. –s.5

düşüncəsini, yanaşmasını, milli musiqiyə, adət-ənənələrimizə olan sevgisini ifadə etməyə çalışmışdır. Lakin onun sənədli nəsr yaradıcılığı da indiyə qədər konseptual şəkildə araşdırılmamış və öyrənilməmişdir. İlk dəfə olaraq bu tədqiqat işində yazıçının sənədli nəsri məzmun, janr, struktur və ideya-sənətkarlıq baxımından sistemli olaraq öyrənilmiş və elmi-nəzəri nəticələr əldə edilmişdir.

Ümumiyyətlə, yazıçının yaradıcılıq irsi orijinal firkirlər, özünəməxsus üslub, lazımi məqamlarda kəskin hökm və ittihamlarla zəngindir. S.Mürvətqızı "*Mustafa Çəmənli yaradıcılığının fərdiliyi bir tərəfdən maraq dairəsinin genişliyidirsə, digər tərəfdən onun hadisələrə münasibətində zamansızlığa nail olmasıdır*"[8] deməklə, onun yaradıcılığını düzgün qiymətləndirmişdir. Bütün bunlara istinadən deyə bilərik ki, onun söz sənətinin ilmələrinə çevrilən yaradıcılığının fəlsəfə doktorluğu səviyyəsində tədqiqata cəlb olunması elmi-nəzəri əhəmiyyət kəsb edir və vacibdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas tədqiqat obyekti çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mustafa Çəmənlinin yaradıcılığı və ona həsr edilmiş elmi və ədəbi-tənqidi materiallardır. Eyni zamanda, təhlillər ümumi Azərbaycan nəsri kontekstində aparılaraq müqayisəli baxış bucağı açmışdır.

Tədqiqat işinin predmeti isə bu əsərlərin janr xüsusiyyətləri, mövzu və ideyası, tarixilik və müasirlik baxımından araşdırılması, mənəvi-əxlaqi problemlərin təsviri, folklordan istifadə imkanları, sənətkarlıq axtarışlarının müəyyən edilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi dərin müşahidələrlə zəngin M.Çəmənli yaradıcılığının müasir Azərbaycan ədəbiyyatında tutduğu mövqeyi aydınlaşdırmaq və elmi əsaslarla qiymətləndirməkdir. Bu baxımdan, onun ilk qələm təcrübəsindən ("Ləpirlər") tutmuş bu günə qədər yazılmış, demək olar ki, bütün əsərləri tədqiqata cəlb edilmiş, yazıçının təsvir obyekti kimi seçdiyi problemlər, dövrünə uyğun olaraq yaratdığı tipik xarakterlər, sənətkar özünəməxsusluğu və nasir kimi imkanları

---

[8] Mürvətqızı, S. Mustafa Çəmənlinin ensiklopedik "Sənət hekayələri" – 35 illik zəhmətin bəhrəsi // 525-ci qəzet, – 2014, 27 sentyabr. – s.20

araşdırılmışdır. Bunun üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

–M.Çəmənlinin ədəbi-bədii fəaliyyətinin tədqiqi və onun müasir Azərbaycan ədəbiyyatındakı rolunu müəyyənləşdirmək;

–Yazıçının yaradıcılığında mövzu və ideya istiqamətlərini araşdıraraq onun toxunduğu problemlərin aktuallığını tədqiq etmək;

–Əsərlərinin janr xüsusiyyətlərini müqayisəli şəkildə müəyyənləşdirmək və onun üslubuna dair ümumi təsəvvür formalaşdırmaq;

– Cəmiyyət və insan problemlərinin sosial-iqtisadi, siyasi, mənəvi və psixoloji səbəblərini araşdırmaq;

– M.Çəmənlinin sənədli nəsrində yaddaş motivini tədqiq etmək;

–Azərbaycan ədəbiyyatında tarixi roman janrının inkişafında M.Çəmənlinin rolunu müəyyən etmək;

– Yazıçının əsərlərində xarakter problemini tədqiq etmək;

–M.Çəmənlinin yaradıcılığında milli düşüncə, milli təfəkkür və milli ideyanın əksetmə arealını müəyyənləşdirmək;

–Zaman, mühit və insan qarşıdurmasının M.Çəmənli yaradıcılığında bədii təzahürünü araşdırmaq;

– Folklor motivlərindən istifadə imkanlarını aydınlaşdırmaq.

**Tədqiqat metodları.** Dissertasiya müasir ədəbi fikrin elmi-nəzəri prinsiplərinin əsasında yazılmışdır. Mövzunun tədqiqi zamanı müqayisəli-tarixi, müqayisəli-tipoloji, təsviri, sistemləşdirmə kimi tədqiqat metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** M.Çəmənlinin yaradıcılığının keçdiyi inkişaf yolunu bütöv və mərhələli şəkildə tədqiq etmək, mövzunu tam şəkildə əhatə etmək üçün müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

– M.Çəmənli yaradıcılığı dövr baxımından mərhələli (Sovet dövrü və Müstəqillik dövrü) şəkildə öyrənilmiş, janr və mövzu cəhətdən təsnif edilmiş, müəllifin sənətkarlıq xüsusiyyətləri müəyyənləşdirilmişdir;

– Ədibin əsərlərində mənəvi-əxlaqi dəyərlərin özünəməxsus təsviri şərh edilmişdir;

– Sənədli nəsr nümunələrində yaddaş motivinin əhəmiyyətindən danışılmış və onlar mövzu və üslub baxımından təsnif və təhlil edilmişdir;

– M.Çəmənli yaradıcılığında tarixilik və müasirlik prinsiplərinin istifadə arealı öyrənilmiş və milli, sosial, iqtisadi problemlər tarix kontekstində dəyərləndirilmişdir;

– Ədibin yaradıcılığında zaman, mühit və insanın qarşılıqlı əlaqəsi araşdırılmış, cəmiyyət və şəxsiyyət problemi şərh edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Müstəqillik dövrü Azərbaycan nəsrinin nümayəndəsi Mustafa Çəmənli ədəbi irsi indiyə qədər ötəri, məqalələr səviyyəsində araşdırılmış, bütövlükdə elmi tədqiqat mövzusu olmamışdır. Bu dissertasiya onun yaradıcılığına həsr olunmuş ilk geniş və sistemli elmi araşdırmadır. Tədqiqat işinin yeniliklərindən biri də ondan ibarətdir ki, M.Çəmənlinin bədii və sənədli fəaliyyəti müasir Azərbaycan reallıqları kontekstində təhlil edilərək daha dərindən öyrənilmişdir. Burada müəllifin hekayə və povestlərindən memuar nəsrinə qədər olan bir çox əsərləri təhlilə cəlb olunmuş, onların janr xüsusiyyətləri və ideya məzmunu elmi-nəzəri və bədii cəhətdən əsaslandırılmış şəkildə qiymətləndirilmişdir:

– Azərbaycan ədəbiyyatı kontekstində Mustafa Çəmənli yaradıcılığı kompleks şəkildə elmi baxımdan öyrənilir, onun uğur və qüsurlarının üzə çıxarılmasının zəruriliyi aydınlaşdırılır;

– Yazıçının əsərlərində əks olunan janr xüsusiyyətləri və mövzu istiqamətləri müəyyənləşdirilir, toxunduğu ideya-məzmun problemləri isə sistemləşdirilir;

– Ədibin bədii və publisistik dil xüsusiyyətləri, bədii təsvir və ifadə vasitələri, folklor motivləri və elementlərindən istifadə imkanları araşdırılır;

– Müəllifin sənədli nəsri kompleks halda təhlilə cəlb olunur, janr və mövzu baxımından tədqiq edilir;

–Tarixilik və müasirlik prinsiplərinə əsaslanan tarixi romanlarında obrazlar sistemi, cəmiyyət və şəxsiyyət problemi elmi-nəzəri müstəvidə öyrənilir;

– İlk dəfə M.Çəmənlinin əsərləri əsasında tarix və insan kontekstində tarixi şəxsiyyətlərin transformasiyası və qoyulmuş problemin həllində zamanla mühitin təsiri müəyyənləşdirilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində M.Çəmənli yaradıcılığı ilə bağlı qoyulan problemlər elmi-nəzəri cəhətdən araşdırılmış və ümumiləşdirilmiş nəticələr əldə edilmişdir. Yazıçının fərdi üslubu, janr və məzmun baxımından sərgilədiyi yaradıcılıq inkişafı, ideya-məzmun xətti və folklordan qaynaqlanma, həmçinin mənəvi-əxlaqi dəyərlərə, özünü dərkə çağırış kimi aspektlər onun əsərlərinin nəzəri əhəmiyyətini ön plana çıxarır.

Dissertasiya işində əldə edilmiş elmi nəticələr ali məktəblərin humanitar fakültələri, doktorantlar, gənc filoloq, tədqiqatçılar üçün, yeni ədəbiyyat və tarix dərslikləri yaratmaq istiqamətində dəyərli qaynaqlardan sayıla bilər. Eləcə də müxtəlif sənət adamlarının həyat və yaradıcılığına geniş yer verilməsi bu işi sənətşünaslar və biblioqraflar üçün etibarlı mənbəyə çevirir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat zamanı əldə edilmiş elmi nəticə və yeniliklər müəllifin Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi Azərbaycan və xarici ölkələrin müvafiq jurnallarında, o cümlədən, Beynəlxalq və Respublika səviyyəli elmi-nəzəri, elmi-praktik konfranslarında çap etdirdiyi məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi 2016-cı ildə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin filologiya problemləri üzrə elmi şurasında təsdiq olunduqdan sonra Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının tədqiqat istiqamətlərinə uyğun olaraq hazırlanmışdır.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş - 6 səhifə (10707 işarə), I fəsil - 52 səhifə (104762 işarə), II fəsil - 35 səhifə (69790 işarə), III fəsil - 37 səhifə (73272 işarə), nəticə - 5 səhifə (9543 işarə), üç dildə (Azərbaycan, türk, rus) tərtib edilmiş 226 adda istifadə edilmiş ədəbiyyat siyahısı - 17 səhifə olmaqla dissertasiya işinin ümumi həcmi 154 səhifə, 268074 işarə sayından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində tədqiqat işinin aktuallığından bəhs edilir, mövzunun araşdırılmasının elmi-nəzəri və praktik əhəmiyyəti əsaslandırılır, problemin işlənmə dairəsi müəyyənləşdirilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, nəzəri metodologiyası səciyyələndirilir, əsas müddəaları, elmi yeniliyi, aprobasiyası və strukturu haqqında məlumat verilir.

**"Mustafa Çəmənlinin əsərlərində ideya-bədii xüsusiyyətlər"** adlı birinci fəsil üç paraqrafdan ibarətdir. **"Yazıçının yaradıcılığının janr və mövzu spesifikası**" adlanan birinci yarımfəsildə, ilk növbədə, janr xüsusiyyətlərinin bədii məzmun və forma arasındakı qanunauyğunluğa əsasən müəyyənləşdirilməsi məsələsinə toxunulur. Baxtin[9], Belinski[10], M.Ə.Paşayev[11], R.Yusifoğlu[12],V.Quliyev[13] kimi ədəbiyyatşünasların janrla bağlı fikirləri əsasında Mustafa Çəmənlinin əsərləri təsnif edilir və cəmiyyəti düşündürə biləcək mövzulara müraciət, problemlərin qoyuluşu və konfliktlərin təqdimi, onların həlli yolları ilə yanaşı, zaman və mühitin bədii əksetdirmə üsulları da nəzərdən keçirilir. Tədqiqat zamanı aydın olur ki, müəllif özünəməxsus təhkiyə üslubu ilə gerçəkliyi bədii sözə çevirərək oxucunu inandıra, hiss və düşüncələrini yönləndirə, toxunduğu ziddiyyətli problemləri insan və cəmiyyət, insan və təbiət, sosial və siyasi münasibətlər müstəvisinə çıxararaq təsvir edə bilir. Mustafa Çəmənlinin yaradıcılığında real

---

[9] Бахтин, М. Автор и герой в эстетической деятельности. Проблема отношения автора к герою: [Электронный ресурс] / URL: https://hist.bsu.by/images/stories/files/uch_materialy/muz/3_kurs/Estetika_Leschinskaya/5.pdf

[10] Belinski, V.Q. Seçilmiş məqalələr / V.Q.Belinski. – Bakı: Uşaqgəncnəşr, –1948. –s.52

[11] Cəlal, M.Ə., Xəlilov, P.İ. Ədəbiyyatşünaslığın əsasları / M.Cəlal, P.Xəlilov. – Bakı: Maarif, –1972. –281 s.

[12] Yusifoğlu, R. Ədəbiyyatşünaslığın əsasları / R.Yusifoğlu. –Bakı: ADPU, –2009. –288 s.

[13] Ədəbi proses-81-82: Nəsr, poeziya, dramaturgiya, tənqid /red. hey. M. Cəfər, Ə. Mirəhmədov, K. Talıbzadə, Q.Qasımzadə, Y.Qarayev, Ş.Salmanov. – Bakı: Elm, –1987. – 302 s.

(müsbət və ya mənfi, güclü və ya zəif) qəhrəmanlar, avtobioqrafik və tipik obrazlar, hadisə və konfliktlər vasitəsilə toxunulan problemlərə baxış bucağı müəyyənləşir. Tarixlə bədiiliyi vəhdət halına salaraq yazıçı mənəvi dəyərlər müstəvisində milliliyi ön plana çıxarır.

Yazıçının yaradıcılığı bütövlükdə bir estetik ideala – mənəvi kamilliyə sadiqliyi ilə seçilir və ədəbiyyatın konseptual inkişafına töhfə verir. Janr, mövzu və ideya müxtəlifliyi isə onun yaradıcılığını iki mərhələdə təhlil etməyi zəruri edir. Ədəbiyyatşünas alim Bahar Bərdəli "*Mustafa Çəmənli yaradıcılığının janr xüsusiyyətləri*" [14] adlı məqaləsində onun fəaliyyətini *Sovet dövrü* (70-80-ci illəri əhatə edir) və *Müstəqillik dövrünə* (90-cı illərdən bu günə qədər) ayırır. Bu bölgü elmi cəhətdən əsaslıdır, çünki hər bir dövr özünəməxsus janr seçimi, mövzu dairəsi və üslub xüsusiyyətləri ilə fərqlənir.

Həqiqət və kamillik axtarışında olan yazıçı zamanla, toxunduğu problemlərdən asılı olaraq, yaradıcılığında janr, mövzu və ideya müxtəlifliyi yaratmışdır. Əgər ilk dövrdə, yəni Sovet dövründə gənc yazıçı inkişafının çiçəklənmə dövrünü keçirən hekayə və povest janrlarına və daha çox quruluşun tələb etdiyi mövzulara müraciət edirdisə, artıq ikinci dövrdə o, janr olaraq daha çox povest, roman və sənədli nəsrə, publisistikaya üstünlük vermişdir. Bu əsərlər azadlıq ("Ruhların üsyanı"), milli kimliyimiz ("Xallı gürzə", "Ölüm mələyi"), mental problemlərimiz ("Dəhliz", "Nişanə", "Toy", "Halallıq" və s.), tariximiz ("Fred Asif", "Mübariz") və mədəni irsimiz ("Yaqub Məmmədov", "Əbülfət Əliyev" və s.) kimi mövzulara həsr edilmişdir.

M.Çəmənlinin hər iki dövrdə janrların məzmun və struktur xüsusiyyətlərinə sadiq qalması, lakonik ifadə tərzi, mövzunun dərin qatlarına nüfuz etməsi, zahiri və mənəvi keyfiyyətlərin qarşıdurmasını təsvir bacarığı, adi situasiyalara estetik çalar qazandırması, canlı və təbii dilə üstünlük verməsi, eləcə də müstəqil tənqidi mövqeyi onun sənətkarlıq xüsusiyyətlərini səciyyələndirən əsas göstəricilərdir. Ən əsası, yazıçı həm bədii, həm sənədli nəsri, həm də publisistikasında xalqı narahat edən suallara cavab

[14] Bərdəli, B.H. M.Çəmənli yaradıcılığında janr xüsusiyyətləri // Filologiya məsələləri, –Bakı: Elm və təhsil. –2015. №5, – s.416

axtarışındadır və dövrün ictimai-mənəvi tələblərinə uyğun bir yaradıcılıq xətti nümayiş etdirir.

**"Ədibin povest və hekayələrində mənəvi-əxlaqi problemlər**" adlanan ikinci yarımfəsildə yazıçının dəyişən tarixi mühitdə mənəvi-əxlaqi dəyərlər arasındakı kolliziyaya (əks qüvvələr arasındakı ziddiyyət) şəxsi yanaşması təhlil edilir, bədii mətnə köçürdüyü problem situasiyanın məzmununa, dinamikasına, evolyusiyasına nəzər yetirilir. Müəllifin çoxşahəli yaradıcılığının tədqiqi göstərir ki, bu günə qədər Mustafa Çəmənlinin mənəvi-əxlaqi axtarışları konseptual şəkildə öyrənilməmiş və təhlil edilməmişdir.

Ədib əsərlərində hər zaman aktual problemlərə toxunur, xüsusən də mənəvi-əxlaqi dəyərlər konteksti üzərində konfliktlər qurmağa çalışır. Adil Məmmədova görə, yazıçının hekayə və povestlərində "*ataları miras qoyub getdiyi maddi və mənəvi abidələrə xor baxanlar, ata-babadan qalmış nəcib, gözəl ənənələri yaşatmaq əvəzinə ona arxa çevirənlər tənqid hədəfinə çevrilir. Bu hekayələrin dilində folklordan gələn şirinlik vardır*"[15]. Bu da onun yaradıcılığının mövzu baxımından milli və özünəməxsus cəhətlərə malik olduğunu söyləməyə əsas verir.

Kasıblıq mövzusu ədibin yaradıcılığında təqdim olunan acı gerçəkliklərdən biridir. M.Çəmənli bu halı mənəvi mükəmməlliyin, müdrikliyin qarşısını alan əsas amillərdən biri kimi təsvir etməklə demək istəyir ki, möhtaclıq insanı yaşama, var olma uğrunda mübarizədən çəkilməyə vadar edir. Kasıblığın dərin və ciddi bir problem olduğunu görkəmli ədəbiyyatşünas alim, tənqidçi Y. Qarayev də öz nitqində xüsusi vurğulamışdır: *"İndi biz bütün problemlərin hamısından əvvəl kasıblıqdan daha tez necə çıxmaq problemini həll etməliyik. Özü də bu vəzifəni "iqtisadi problemdən" daha əvvəl "əxlaqi problem" kimi həll etməliyik* [16]. Çünki kasıblığın elmi və mədəni cəhətdən inkişaf edən aləmlə ayaqlaşması mümkün deyil. Deməli, maddi rifahın yüksəlməsi həm də insani keyfiyyətlərin, mənəvi dəyərlərin inkişafı yolunda əsas amillərdən biri kimi nəzərdə tutulmalıdır.

---

[15] Məmmədov, A. Təbii lövhələr // Azərbaycan gəncləri, – 1983, 5 aprel. – s.6

[16] Qarayev, Y.V. Seçilmiş əsərləri, XXI əsr: qlobal sivilizasiya və Şərq dəyərləri (Elmi forumun açılışında giriş nitqi): [5 cilddə] / Y.V.Qarayev, c.4., Bakı: Elm, – 2016, – s.682

**“Mustafa Çəmənlinin sənədli nəsrində yaddaş faktoru”** adlı üçüncü paraqrafda isə yazıçının sənədli nəsr nümunələri araşdırılır, janr spesifikasına görə təhlil olunur və mövzu baxımından təsnif edilir.

Əvvəlcə, XIX əsrin ortalarından başlayaraq yaranmağa başlayan sənədli nəsrin bir janr kimi inkişaf tarixinə nəzər salınır, onun əsas predmeti və məqsədi müəyyənləşdirilir. Daha sonra, “t*arixi yaxından duyma*”ğı[17], həm də həyatiliyi dərk etməyi bacaran Mustafa Çəmənlinin sənədli nəsr yaradıcılığı əsasında sənədli nəsrin bəzi problemləri araşdırılır. Məlum olur ki, bəzi ədəbiyyatşünaslar (məsələn, türk tənqidçisi Əhməd Camal) sənədli nəsrdə obraz və obrazlılığı inkar etsələr də, Əsgər Rəsulovun bildirdiyi kimi, *sənədli nəsrdə obraz da var, obrazlılıq da. Ancaq bu obrazlar yazıçı təxəyyülünün məhsulu yox, mahiyyətcə real-ictimai xarakter daşıyır”* [18]. Z.Y.Şaripova da qeyd edir ki, sənədli nəsr nümunəsi, gerçək və real olmasından asılı olmayaraq, bədiilik baxımından zəif olarsa, oxucusunun itirilməsinə səbəb ola bilər [19].

Ziyadxan Əliyev *“Səsləri əbədiləşdirmək istedadı”* adlı məqaləsində M.Çəmənlinin sənədli nəsr yaradıcılığını çox doğru olaraq şərh etmişdir: *“Mustafa Çəmənlinin sənətlə bağlı ədəbi nümunələrinin ilk baxışda janrını, bütünlükdə isə onların estetik tutumunun böyük ədəbiyyata, əhatəliliyi birmənalı olan jurnalistikaya və yaxud təhlil və tədqiqə yönəlik müsiqişünaslığa aid olduğunu müəyyənlişdirmək bir qədər çətindir, desək, yəqin ki, yanılmarıq. Belə ki, həcmindən asılı olmayaraq, onların hər birində özünəməxsus dramaturji xəttə köklənmiş yazıçı müdrikliyini, jurnalist “diriliyi”ni və musiqişünas-tədqiqatçı nəfəsini duymaq mümkündür. Qənaətimizcə, məhz yaradıcılığına xas olan bu çoxşahəli tutum onu başqa musiqi tədqiqatçılarından fərqləndirir...”* [20]. Həqiqətən də, bu

---

[17] Шик, Э. Документ, факт, образ / Э.Шик. –Новосибирск: Зап.-Сиб. кн. издательство, –1973. – с.33

[18] Rəsulov, Ə.A.Türk sənədli-bədii nəsri / Ə.A.Rəsulov. – Bakı: Elm, –2004, – s.67

[19] Шарипова, З.Я. Литературоведение и современность / З.Я.Шарипова. – Уфа: Китап, – 2001. – с.155

[20] Əliyev, Z. Səsləri əbədiləşdirmək istedadı [Elektron resurs] // 525-ci qəzet. –2014, 5 iyul. URL: https://525.az/news/21331-sesleri-ebedilesdirmek-istedadi

əsərləri tamamilə publisistikaya aid etmək olmaz, çünki həcminə və bədii dilinə, poetikliyinə, təsvirin canlı və rəngarəngliyinə, obrazı mənəvi, psixoloji cəhətdən təhlilinə görə fərqlənirlər. Bu səbəbdən də, bu əsərlərin, elmi və nəzəri baxımdan uyğunluq təşkil etdiyindən, sənədli nəsrə aid edilməsini və aşağıdakı kimi təsnif olunmasını məqsədəuyğun hesab edirik:

1. İctimai-mədəni mühiti əks etdirən sənədli nəsr: "Oxu, gözəl", "Muğam dünyasının xanı", "Səsin ruhu", "Sənət hekayələri", "Məcnunun Məcnunu", "Leyli və Məcnun – 100 il səhnədə" və s.

2. Qarabağ mövzusunda yazılan sənədli nəsr: "Fred Asif", "Mübariz", "Burdan bir atlı keçdi..." və s.

3. Xatirə ədəbiyyatı, esselər, müsahibələr: "Şələ", "Aldanmış çiçəklər", "Bahar kimi" esseləri, "Mən ağlayan kişi deyiləm", "Nədənsə 60 rəqəmindən qorxuram", "Ürəyimdən kimlər keçdi", "Gözəgörünməz düşmən" və s.

Bioqrafik xarakter daşıyan bu sənədli nəsr nümunələrində sistematiklik, xatirə-fraqmentlərin tarixilik baxımından düzgün seçilməsi kompozisiya bütövlüyünün əldə edilməsinə imkan yaradır. Araşdırmalar təsdiq edir ki, yazıçı təsvir etdiyi insanların taleyi fonunda bir sıra problemlərə – şəxsiyyət və sənət, şəxsiyyət və cəmiyyət, cəmiyyət və sənət arasındakı qarşılıqlı əlaqəni bədii-sənədli şəkildə ifadə edə bilmişdir. Bu baxımdan, publisist Telli Pənahqızının "*Mustafa Çəmənli bu insanlar haqqında sadəcə fakt və rəqəmlərin cansıxıcı reallıq konturlarını cızmaqla kifayətlənmir, bir yazıçı səbri, şair fəhmi, rəssam təxəyyülü ilə onların hər birinin həyat hekayəsinin kağız molbertində yaddaş palitrasını yaradır*"[21] fikrini ədibin bu janrdakı fəaliyyətinin qiymətləndirilməsində ən düzgün meyar kimi qəbul etmək olar.

**"Mustafa Çəmənlinin nəsrində tarixin bədii dərki"** adlı ikinci fəsil üç paraqrafdan ibarətdir. **"Tarixi roman janrının inkişaf mərhələsinə ümumi bir nəzər"** adlı paraqrafda roman, tarixi roman janrları haqqında Azərbaycanda (Y.Qarayev, Q.Xəlilov,

---

[21] Mustafa Çəmənli (Mustafayev Mustafa Şura oğlu): biblioqrafiya /tərt. ed. M.Cəfərova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva. – Bakı, 2017. – s.43

H.Ənvəroğlu, İ.Musayeva, Y.Axundlu, T.Salamoğlu), eləcə də dünya ədəbiyyatşünaslığında (V.Kojinov, F.Şleqal, D.Zatonskiy) deyilmiş fikirlər araşdırılmış və onların inkişaf tarixlərinə nəzər yetirilmişdir.

Tədqiqat işində tarixi roman tarixlə şəxsiyyəti (qəhrəmanı) vəhdətdə təqdim edərək dövrün ictimai-sosial mənzərəsini, xalqın etnoqrafik xüsusiyyətlərini, milli düşüncə tərzini, siyasi-ideoloji baxışlarını zaman və mühit baxımından əksetdirə bilən bir janr kimi qiymətləndirilir və onun Azərbaycan gerçəkliklərinə münasibəti, milli-mənəvi kimliyin ifadə vasitəsi kimi rolu əsas diqqət mərkəzində saxlanılır.

Sovet rejiminin sərt ideoloji məhdudiyyətlərinin nisbətən yumşaldığı dövrdə tarixi roman janrında milli yaddaşa qayıdış meyilləri güclənmiş, bu istiqamətdə bədii axtarışlar intensivləşmişdir. Azərbaycanın müstəqillik əldə etməsi ilə isə bu janr yeni inkişaf mərhələsinə qədəm qoyaraq milli-mənəvi dəyərlərin bədii ifadəsində mühüm vasitəyə çevrilmişdir. Məsələn, M.İsmayılovun "Sənin ulu baban", Davud Nəsibin "Cavanşir", M.Çəmənlinin "Xallı gürzə", "Ölüm mələyi", Elçinin "Baş", S.Rüstəmxanlının "Göy Tanrı", "Ölüm zirvəsi", Y.Oğuzun "Nadir şah", "Təhmasib şah", "Əmir Teymur", "Şah arvadı və cadugər", Akif Əlinin "Azman" əsərləri bu baxımdan diqqətəlayiqdirlər. Mövzu seçimi, struktur, dil və estetik baxımdan fərqli olmalarına baxmayaraq, bu əsərlər ortaq bir məqsədə – dövlətçilik ideyasına əsaslanan tarixi varisliyin bədii şəkildə öyrənilməsinə və təbliğinə xidmət edirlər.

Bu yarımfəsildə yazıçı, tarixi reallıq və bədii təxəyyül münasibəti əsas təhlil obyektləri kimi nəzərdən keçirilir. Faktı təhlilsiz təqdim edən tarixçidən fərqli olaraq, yazıçı həmin fakta bədiilik, həm də məntiqi və şəxsi yanaşmasını əlavə edərək oxucunun daha böyük marağına səbəb ola, onu təsvir edilənləri daha ətraflı araşdırıb öyrənməyə vadar edə bilir. Yəni, Aqil Abbas demişkən, *"Tarix kitabı insanın yaddaşında qalmaz, amma tarixi əsərlər yaddaşda qalır"* [22].

[22] Abbas, A. Tarixi roman bumu: yeni dəb, yoxsa nə?: [Elektron resurs] / Bakı, 2013, URL: https://www.adalet.az/mobil/26108

Tarixi roman janrının bu imkanlarından yararlanan Mustafa Çəmənli də qələmə aldığı "Xallı gürzə" və "Ölüm mələyi" əsərləri vasitəsilə tarixə səyahət edib həmin dövrün ictimai-sosial problemlərini bədii təhlil obyektinə çevirərək müasir cəmiyyətimizi narahat edən suallara cavab axtarır. Bu səbəbdən də, onun romanlarında tarixiliklə yanaşı, müasirlik prinsipi də aktuallıq kəsb edir.

Müqayisəli-tarixi və tipoloji təhlil göstərir ki, müəllif tarixiliyin qorunmasına xüsusi önəm vermiş və bu məqsədlə müvafiq dövrün mənbələrini dərindən araşdırmışdır. Bu yanaşma onun tarixə və reallığa laqeyd qalmadığını sübut edir.

Bu fəslin **"Xallı gürzə" əsərində Qarabağ tarixinin bədii təsviri"** adlanan ikinci paraqrafında isə yazıçının Qarabağ tarixini əks etdirən "Xallı gürzə" romanı süjet, mövzu, konflikt, xarakter baxımından araşdırılmışdır. Əsərdə çoxsaylı tarixi mənbələrdən (Mirzə Camal Cavanşirin "Qarabağ tarixi", Salman Mümtazın "Məhəmmədhüseyn xan Müştaq", Əhməd bəy Cavanşirin "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair" və s.) geniş istifadə olunması xüsusilə diqqət çəkir. Y.Axundlu haqlı olaraq vurğulayır ki, *müəllif romanı qələmə alarkən çoxlu tarixi mənbələrdən, o dövrün təzkirələrindən geniş istifadə etmiş, hadisələrin tarixi həqiqətə uyğun canlandırılmasına nail olmuşdur* [23].

I Qarabağ müharibəsinin ağrılı dönəmində, 1993-cü ildə mətbuatda dərc olunmuş "*Xallı gürzə niyə dirilir?"*[24] adlı yazı təsadüfi deyildir. Məqalədə verilən sualın ironik mahiyyəti əsərin ideyası ilə səsləşir. Çünki yazıçı Qarabağ xanlığının tarixini göstərməklə yanaşı, düşmənlərin – Vətəni təhdid edən "ilanların" əsl niyyətini açır, bədii vasitələrlə dövlətçiliyimizə qarşı yönəlmiş düşmənçiliyin tarixi səbəblərini üzə çıxarır. Bu səbəbdən Əjdər Fərzəli əsəri "*qan yaddaşımızı oyadan roman*"[25] kimi dəyərləndirmişdir. Doğrudan da, əsərin adı şərti-metaforik xarakter daşıyaraq gerçəkliyin təqdimində həm metodoloji üsul, həm də bir ekspozisiya elementi kimi çıxış edir.

---

[23] Axundlu, Y.İ. Ölüm mələyi // 525-ci qəzet. – 2012, 11 avqust. – s.16

[24] Bir kitablıq söz / tərt. ed. C.Mustafayev. – Bakı: Yazıçı, – 2005. –s.29

[25]Bir kitablıq söz / tərt. ed. C.Mustafayev. – Bakı: Yazıçı, – 2005. –s.29

Görkəmli ədəbiyyatşünas və tənqidçi Vaqif Yusifli də bu əsəri yüksək qiymətləndirmişdir: *"Bu əsər mövcud "Qarabağnamə"lərin durulmuş, sanki süzgəcdən – ələkdən keçirilmiş bədii ifadəsidir. Məncə, "Xallı gürzə" bu mənada ikinci bir tarixi romandır ki, Qarabağ xanlığının, onun banisinin və eyni zamanda həmin dövrdə Azərbaycan xanlıqlarının bir-biriylə münasibətlərinin bədii tarixini əks etdirir"* [26]. Həqiqətən də, bu mövzuda yazılmış əsərlərlə müqayisə apararkən aydın olur ki, M.Çəmənlinin tarixi-realist üslubda yazılmış "Xallı gürzə" əsəri zaman, məkan, xarakter, dil baxımından daha zəngin və koloritlidir.

**"Ölüm mələyi" romanında tarixin bədii-fəlsəfi inikası"** adlanan üçüncü yarımfəsildə ədibin yaradıcılıq yolunun ikinci mərhələsinə aid olan "Ölüm mələyi" əsəri təhlil obyekti kimi təqdim edilir. Ədəbiyyatşünas Yavuz Axundlu əsərlə bağlı araşdırmalarında "Ölüm mələyi" *tarixi romanının süjetinin digər romanların ənənəvi quruluşundan*[27] fərqləndiyini qeyd edir və yüksək dəyərləndirir.

Romanda İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi" əsərinin təsiri və müəllifin tarixə münasibəti aydın şəkildə özünü göstərir. Əsər Təhmasib şahın xəstələnməsi ilə başlayıb İsmayıl Mirzənin ölümünə qədərki dövrün tarixi xronikasını əks etdirsə də, onu klassik tarixi-realist roman tipinə aid etmək düzgün olmazdı. Çünki roman həmin dövrün ictimai-siyasi problemlərini əks etdirməklə yanaşı, həm də qəhrəmanların xarakterlərinin psixoloji dərinliklərini açmağa, onların daxili mənəvi dünyasını təhlil etməyə imkan yaradır. Vaqif Yusifli yazır ki, "*Mustafa Çəmənlinin "Ölüm mələyi" romanı sırf tarixi-sosioloji romandır. Bu əsərdə tarix həm də sosioloji aspektdə nəzərə çarpır. Mustafa Çəmənli təsvir etdiyi dövrü təkcə tarixi həqiqətlər baxımından deyil, həm də sosioloji baxımdan da izah və şərh etməyə can atır*" [28]. Tənqidçi öz yanaşmasında haqlı olsa da, əsərin psixoloji təhlil aspektini nəzərə almamışdır. Təsvir edilən tarixi hadisələrin və sosial problemlərin faciə dolu insan

---

[26] Yusifli, V.Ə. Qan yaddaşımızı oyadan roman. "Xallı gürzə" romanına ön söz. / –Bakı: Kitab klubu, –2016. – s.6

[27] Axundlu, Y.İ. Ölüm mələyi // 525-ci qəzet. – 2012, 11 avqust. – s.16

[28] Yusifli, V.Ə. "Ölüm mələyi": ənənədən gələn notlar və yeni çalarlar... // 525-ci qəzet, –2013, 27 aprel. – s.19

taleləri fonunda psixoloji təhlil müstəvisində şərh olunması bu əsərin məzmun baxımından sosial-psixoloji roman kimi təsnif edilməsini zəruri edir.

Burada müəyyən bir dövr, onun tarixi şəxsiyyətləri təsvir obyekti kimi seçilsə də, roman konkret zaman, məkan, obraz problemini aşaraq milli-bəşərilik əldə edir və bədii-estetik, fəlsəfi məna kəsb edir. Eyni zamanda, əsər unudulmuş tarixi yaddaşı oyatmaqla yanaşı, insan və Allah münasibətlərini də işıqlandırır. Müəllif səhvlərin bumeranq kimi geri dönüşünü təsvir edərək hadisələrə bədii-fəlsəfi məna qazandırır. O, tarixilik vasitəsilə müasir dövrü şərh edir, əsrlər öncə yaşayanlarla bu günkü bəşəri müqayisə edərək onların əsas xüsusiyyətlərinin dəyişmədiyini ortaya qoyur.

Ziddiyyətli və mürəkkəb obrazlar sistemi ilə seçilən "Ölüm mələyi" romanında hakimiyyət hərisliyi, şəxsiyyətin formalaşması, mənəvi-əxlaqi dəyərlər (nəfs, sevgi, qəddarlıq, mərhəmət və s.), varislik ənənəsi, vəzifə borcu, nəsillərarası münasibətlər (atalar və oğullar), ailədaxili qarşıdurmalar kimi bir çox sosial-psixoloji və ideoloji məsələlər bədii şəkildə əksini tapmışdır.

Dissertasiyanın **"Mustafa Çəmənlinin yaradıcılığında insan, mühit və zaman"** adlanan üçüncü fəsli üç paraqrafdan ibarətdir. Onun "**Mustafa Çəmənlinin bədii nəsrində xarakter problemi**" adlı paraqrafında, ilk öncə, ədəbiyyatşünaslıqda xarakterlə bağlı irəli sürülmüş bir sıra elmi-nəzəri mülahizələr araşdırılır.

Azərbaycan ədəbiyyatşünaslığında mühüm xidmətləri olan Mir Cəlal Paşayev, Yaşar Qarayev, Bəkir Nəbiyev, Baba Babayev, İsmayıl Vəliyev, Rafiq Yusifoğlu, Nizaməddin Şəmsizadə və digər alimlərin bu məsələyə dair fikirləri öyrənilmiş və belə bir qənaətə gəlinmişdir ki, milli dəyərlər kontekstində təqdim olunan xarakter yalnız dövrün və mühitin mənzərəsini əks etdirmir, eyni zamanda ümumbəşəri mahiyyət daşıya bilir.

M.Çəmənli öz yaradıcılığında yaşadığı dövrün mövzu və problemlərinə müraciət edərək cəmiyyəti düşündürən, narahat edən məsələlərə cavab axtarmış, həyatın yaxşılaşdırılması yollarını müəyyənləşdirməyə çalışmışdır. O, ideya, düşüncə, hisslər əsasında iqtisadi, sosial mühitin əksini yaratmış və real gerçəkliyi xarakter və konflikt vasitəsilə təhlil predmetinə çevirməyi bacarmışdır.

Tədqiqat onu göstərir ki, ədibin mühit və zaman kateqoriyasına yanaşması mürəkkəb, həm də çoxcəhətlidir. Bu baxımdan, onun təsvir etdiyi xarakterlər İsmayıl Vəliyevin dediyi kimi, *hadisələrin qeyri-müəyyən axınında deyil, xarakterik hadisələrin qanunauyğun inkişafı prosesində həyati konfliktlər və xüsusi vəziyyətlər içərisində müəyyənləşirlər"* [29]. Beləliklə, yazıçı qəhrəmanlarını zaman və mühitin vəhdətində təqdim etməklə bu amillərin insan xarakterinin formalaşmasındakı rolunu xüsusilə vurğulayır.

Müəllifin bir çox əsərlərində oxucu yazıçının həm arzuladığı, həm də real həyatda daha çox rastlaşdığı tiplərlə üz-üzə qalır. Ədalətsiz müharibələrə, uzun illər boyunca ictimai şüura aşılanan mənafebazlığa, mənəvi simasını itirmiş şəxslərə "dayan" deməyi bacaran güclü xarakterlərlə yanaşı, ədib, eyni zamanda, özünə qapanmış, tənha və çarəsiz obrazlar qalereyası yaradır. O, pafosdan uzaq duraraq zamanın və mühitin mənəvi və psixoloji baxımdan zəif fərdlər formalaşdırdığını göstərir. Müəllifə görə, Azərbaycan vətəndaşı tarixin və həyatın məğlubu olmaması üçün mübarizə aparmalı, özünü, dövlətini, Vətənini qorumalıdır. Axı "ruhlar bizi qəhrəmanlığa çağırır". Bütün bu məqamları nəzərə alaraq demək olar ki, yazıçı öz əsərlərində təzadlarla dolu həyatı mühakimə edən bir müşahidəçi-hakim kimi çıxış edir və baş verənlərin səbəbi kimi yalnız insan faktorunu deyil, zaman və mühitin də təsirini diqqətə çatdırır.

Üçüncü fəslin **"Obrazlar sistemində millilik prinsipi"** adlı ikinci paraqrafında estetik kateqoriya olan millilik müəyyən bir xalqa məxsus məişət, adət-ənənə, dil, din, ictimai, mental xüsusiyyətlərdən qaynaqlanan psixologiya və düşüncə kimi nəzərdən keçirilir və araşdırılır.

Görkəmli ədəbiyyatşünas Qasım Qasımzadənin *"Obrazı canlandırmaq, onun xarakterini, xarici portretini çəkməkdə sənətkarın müraciət etdiyi vasitələrdən biri də qəhrəmanın xüsusiyyətlərini yerli şəraitlə bağlamaqdır. Bu cəhət xarakterə bir*

[29] Vəliyev, İ.Ö. Ədəbiyyatda insan konsepsyası: tarixi təşəkkülü və inkişaf mərhələləri / İ.Ö.Vəliyev. –Bakı: Günəş, –1999. –s.299

*kolorit aşılayır, onun milli keyfiyyətlərinin tamamlanmasına kömək edir"* fikri milli xarakter anlayışının mahiyyətini dəqiq ifadə edir [30].

Son dövrlərdə millilik məsələsi ətrafında aparılan müzakirələrə də istinad olunmuş, bu kontekstdə tədqiqatçı öz elmi mövqeyini əsaslandırılmış şəkildə ortaya qoymuşdur.

Yaradıcılığının ilk mərhələsində M.Çəmənli sovet rejiminin xalqın adət-ənənələri, mənəvi dəyərləri və həyat tərzinə göstərdiyi psixoloji, iqtisadi, siyasi təzyiqləri təsvir etməklə "gözə kül üfürən" hakimiyyətin milli kimliyimizi dəyişdirmək istiqamətindəki məqsədlərini təqdim etmişdir. Təsvirçiliyə yol vermədən, sadə, qəlbə yatan səmimi dillə qələmə alınmış "Yaddaş" povesti, "Toy", "Qəbir" hekayələrində maraqlı bir detalla üzləşirik: bu əsərlərdə hadisələrin baş verdiyi məkan kimi Ocaqlı kəndi göstərilmişdir. Bizə elə gəlir ki, təsadüfi olmayan bu ad bütövlükdə Azərbaycanı birləşdirir, yəni rəmzi məkan funksiyasını daşıyır – ocaq, məhrəmlik, doğmalıq bildirir və xalqın ümumi problemlərini oxucuya çatdırır.

Dövlətçilik tarixinə, milli mədəniyyətinə bağlılığı ilə seçilən M.Çəmənlinin yaradıcılığı folklor motivləri ilə zəngindir. Onun bədii mətnlərində adət-ənənələr, bayatılar, deyimlər, tapmacalar, atalar sözləri və məsəllər, qarğış və alqışlar, rəvayətlər, mərasimlər, inanc və lətifələrdən istifadə əsərlərinə xüsusi milli kolorit qazandırır. Qəhrəmanların dilində rast gəldiyimiz bu elementlər hikmət və əxlaqı təbliğ və təlqin edir. Nağıl və dastanlarda olduğu kimi, yazıçı mətnyaratma prosesində xeyir və şərin mübarizəsini təsvir edir. Lakin onun yaradıcılığında, şifahi xalq ədəbiyyatından fərqli olaraq, xeyir hər zaman qalib gəlmir. Müəllifin istəyi bu olsa da, o, əsərlərində real həyatı və cəmiyyətin mövcud problemlərini olduğu kimi, bədii gerçəklik prinsipi əsasında təsvir edir.

Bir sözlə, *"Mifologizm və folklorizm bədii təfəkkürün etnik xüsusiyyətlərini ifadə üsullarından biri"*[31] kimi M.Çəmənlinin yaradıcılığında milli dəyərləri, düşüncəni əksetdirmə vasitəsidir.

---

[30] Qasımzadə Q. Ədəbiyyatda millilik və beynəlmiləllik / Q.Qasımzadə. – Bakı: Elm, -1982. – s.153

[31] Bayat, F.X., Bəşirli, X.B. Azərbaycan folkloru və yazılı ədəbiyyat / X.B.Bəşirli, F.X.Bayat. – Bakı: Elm və təhsil, –2013. – s.6

Məsələn, “Xallı gürzə” və “Ölüm mələyi” tarixi romanlarının əsas motivi, başlanğıcı mif və folklor ənənələrinə söykənir. Bu əsərlər üç düşüncə formasını – tarixi, mifoloji və bədii düşüncələri özündə birləşdirir. Obrazlararası münasibətlər, milli əxlaqi-etik dəyərlər, həyat və düşüncə tərzi zamanın tarixiliyini gücləndirən, dövrün sosial-mədəni mənzərəsinin obyektiv qiymətləndirilməsinə zəmin yaradan əsas şərtlərdir. Hər iki əsərdə süjet boyu çoxlu tarixi təfərrüatlara rast gəlirik. Lakin ilk öncə o qədər də dərk olunmayan, lakin sonradan əsl mahiyyətini sərgiləyən mifik obrazların (demonik obrazlar ilan və ölüm mələyi) tarixi kontekstdə bədii mətnin ideya istiqamətini, süjet xəttinin sərhədlərini dəqiqləşdirdiyini görürük.

Mustafa Çəmənlinin yaradıcılığında xalq müdrikliyi və milli düşüncə sistemi ilə sıx bağlı olan adət-ənənələr, dil, din və milli təfəkkür tərzi azərbaycançılıq ideologiyasının əsas ideya mənbəyi kimi çıxış edir. Onun əsərlərində bu ideologiya keçmişlə bu gün arasında etnokulturoloji körpü rolunu oynayan millilik, multikulturalizm və tolerantlıq prinsipləri ilə vəhdət təşkil edir. Beləliklə, yazıçının bədii təfəkküründə azərbaycançılıq həm milli-mənəvi dəyərlərin qorunması, həm də bəşəri keyfiyyətlərin ifadəsi baxımından konseptual bir sistem kimi təqdim olunur.

Dissertasiyanın üçüncü fəslinin **“Tarixi aspektdə insan problemi”** adlı paraqrafında bədii obrazların tarixi kontekstdə təhlili aparılır, onların vasitəsilə cəmiyyətin ictimai meyilləri, maraqları və ideoloji təsirləri öyrənilir. Bu yanaşma cəmiyyətin sosial-mənəvi dinamikasını və transformasiyasını dərk etmək baxımından mühüm elmi nəticələrə zəmin yaradır.

Əvvəllər ədəbi obrazlar əsasən qəhrəman və düşmən arxetipləri üzərində qurulur, konkret ideyanın daşıyıcısı kimi toxunulmaz sərhədlərlə təqdim olunurdularsa, çağdaş dövrdə tarixi-iqtisadi və ictimai-sosial düşüncə sistemində baş verən dəyişikliklər fonunda artıq absolyut müsbət qəhrəman modeli aktuallığını itirmişdir. Bu yeni reallıq yazıçıları kompromisli və ya kompromissiz situasiyalarda formalaşan xarakterləri daha obyektiv və psixoloji baxımdan əsaslandırılmış şəkildə təqdim etməyə sövq edir.

M.Çəmənli də bu transformasiyalar zəminində yaradıcılığında fərqli və çoxtərəfli baxış bucağını sərgiləyir. Sosial-ictimai mühitdə

yaranan çətinliklər, qeyri-sabit düşüncələr vasitəsilə o, məcburi və ya könüllü dəyişiklikləri, eləcə də onların yaratdıqları hissləri bədii şəkildə ifadə edir. Məhz bu səbəbdən Mustafa Çəmənli öz qəhrəmanlarının daxili dünyasını açmaq üçün iki yola əl atır:

1. Qəhrəman obrazlara, onların həyatlarına təsir edən amilləri və səbəbləri təsvir etmək;

2. Əsas personajların daxili aləmində baş verən sosial-mənəvi transformasiyaların nəticələrini təhlil etmək.

Bu baxımdan, Mustafa Çəmənlinin tarixi şəxsiyyətlərə müraciəti məqsədəuyğundur. Yazıçı "Xallı gürzə" və "Ölüm mələyi" tarixi romanlarında ardıcıl və sistemli şəkildə tarixi şəxsiyyətin bir lider kimi inkişafını, onun transformasiya dönəmlərini, cəmiyyətdə baş verən hadisələrə təsirini uğurla təsvir edə bilmişdir. Əsərlərin təhlili göstərir ki, hər iki əsər bu tip obrazlarla zəngindir. Məsələn, qəhrəmanlıq və şücaət ideyası ilə böyüyən, xalq arasında mərd və igid kimi tanınan Şah İsmayılın 19 ildən artıq həbsdə qalması onun həyatında ciddi dönüş və psixoloji transformasiya mərhələsini təşkil edir. Yazıçı bu dövrü böyük ustalıqla və daxili dinamikası ilə bədii şəkildə təsvir etməyi bacarmışdır.

Aparılan tədqiqatlardan belə qənaətə gəlmək olar ki, transformasiyalar qarşılıqlıdır. Yəni qəhrəman mühiti dəyişmə gücünə malik olduğu kimi, mühit də qəhrəmana təsir edir. Məhz bu qarşılıqlı əlaqə obrazın inkişaf xəttini müəyyənləşdirən əsas amillərdən birinə çevrilir.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə olunan elmi-nəzəri qənaətlər aşağıdakı qaydada ümumiləşdirilmişdir:

1. Hadisə və konfliktləri sadə, eyni zamanda psixoloji-emosional çalarlarla təsvir edən, qoyulmuş problemin həllinə özünəməxsus yanaşma üslubu ilə seçilən yazıçının yaradıcılığını müasir Azərbaycan ədəbiyyatının uğuru kimi dəyərləndirmək olar. Cəmiyyətdəki ziddiyyətlərin – milli yaddaşın silinməsi, vəzifədən sui-istifadə, iqtisadi-mənəvi böhran, Qarabağ konflikti və s. – dərin qatlarının dərk edilməsi, habelə təqdim edilən obyektiv ictimai-siyasi mövqe onun yaradıcılığını mövzu və ideya baxımından ədəbi fakta çevirir;

2. M.Çəmənlinin yaradıcılığı dövr və bədii sənətkarlıq xüsusiyyətlərinə əsasən iki mərhələyə – sovet və müstəqillik dövrlərinə ayrılmışdır. Hər mərhələyə aid əsərlər janr, mövzu və problematika baxımından təhlil olunmuş, digər yazıçıların bədii nümunələri ilə müqayisə edilərək ortaq (milli-mənəvi mövzulara maraq, milli kimliyin qorunması, realist yanaşma) və fərqli cəhətlər (sovet dövrü yaradıcılığına xas ideoloji çərçivə, sosialist realizm; müstəqillik dövrü yaradıcılığı üçün isə dərin psixoloji analiz, müstəqillik ideyasının bədii ifadəsi) müəyyənləşdirilmişdir;

3. Yazıçının yaradıcılığının ilk mərhələsinə aid hekayə və povestlərdə xalqı düşündürən, narahat edən sosial, ailə-məişət və mənəvi problemlər ustalıqla əks olunmuş, bu mövzuların geniş təhlili üçün zəmin yaradılmışdır. O, müraciət etdiyi hər bir janrın spesifik tələblərinə əməl etməklə tənhalıq, qocalıq, ədalətsizlik, milli dəyərlərin unudulması, xəyanət və digər mənəvi-əxlaqi ziddiyyətlərin bədii həlli yollarını göstərməyə nail olmuşdur;

4. Tədqiqat zamanı aydın olur ki, yazıçı utopik bir dünyanın axtarışında, arzusunda olsa da, reallıqdan uzaqlaşmadan zamanının yetirməsi olan insanı süni şəkildə ideallaşdırmamışdır. Bununla da müəllif cəmiyyətin əsl simasını, zaman, mühit və fərdi seçimlərin təsiri ilə formalaşan insan xarakterlərini bədii təhlilin əsas predmetinə çevirmişdir. Müəllifin ideal qəhrəmanı (Fred Asif, Mübariz, Soltan, Qara Hümmət) vicdanlı, ədalətli, mənəvi dəyərlərə sadiq, xalqını və vətənini təmənnasız və fədakarlıqla sevən şəxsiyyət kimi təqdim olunur;

5. Sənədli nəsrin janr qanunauyğunluqları öyrənilmiş, onu bədii nəsrdən fərqləndirən sənədlilik, gerçəkliyin təhrifsiz təqdimi, real obrazların təsviri və s. kimi əsas cəhətlər elmi-nəzəri aspektdən tədqiqata cəlb olunmuşdur. Yazıçının sənədli nəsr nümunələrinin təhlili həmin əsərlərin mövzu baxımından qruplaşdırılmasına şərait yaratmışdır. Tədqiqat işində bu əsərlərin mövzu dairəsi, bədii-sənətkarlıq xüsusiyyətləri və qoyulan problemlər elmi-nəzəri kontekstdə araşdırılmış, əldə olunan nəticələr ümumiləşdirilərək təqdim edilmişdir. Bununla yanaşı, sənədli nəsrin publisistik və informativ-estetik funksiyalarının yazıçının yaradıcılığında necə

gerçəkləşdiyi müəyyənləşdirilmiş, onun müasir Azərbaycan sənədli nəsrinin inkişaf prosesindəki rolu elmi baxımdan əsaslandırılmışdır;

6. Yazıçının müstəqillik dövründəki yaradıcılığını özünə-qayıdış, özünütanıma, milli oyanış və dirçəliş ideyalarının təbliği baxımından bədii-tarixi mənbə kimi dəyərləndirmək olar. M.Çəmənli yad düşüncə tərzinin və mənəvi əsarətin təsirlərini rədd edərək, milli soykökə, tarixi yaddaşa və mənəvi dəyərlərə qayıdışın zəruriliyini vurğulayır, bu istiqamətdə aydın və qəti ictimai-mədəni mövqe sərgiləyir;

7. Azərbaycan tarixi romanının inkişafı ilə bağlı fikirlər araşdırılmış, bu janra müraciət edən müəlliflərin tarixi hadisələrə fərdi yanaşmaları müəyyənləşdirilmişdir. Bədiiliklə sənədliliyin vəhdəti, tarixi fakt, hadisə və şəxsiyyətlərin yazıçı təxəyyülünün süzgəcindən keçirilib bədii-estetik müstəviyə gətirilməsi, zəngin inkişaf yolu keçmiş tarixi roman janrının əsas tələblərindən biri kimi dəyərləndirilmişdir. Müəllif və onun tarixə yanaşma tərzi necə olmalıdır suallarına tədqiqat çərçivəsində cavab verilmiş, milli tariximizin qaranlıq səhifələrinin Mustafa Çəmənli yaradıcılığında bədii əksi elmi-nəzəri əsaslarla təhlil olunmuşdur. Müəyyən edilmişdir ki, yazıçı bu əsərləri ilə tarixi roman janrında bədii-psixoloji düşüncə tərzinin inkişafına mühüm təkan vermiş, milli yaddaş konseptini dövlətçilik və şəxsiyyət problemlərinin bədii həllində əsas meyar kimi irəli sürmüşdür;

8. Yazıçı tarixi romanlarında qələmə aldığı hadisə, fakt və tarixi şəxsiyyətlər vasitəsilə müasir dövrlə keçmiş arasında paralellik yaradaraq dövrlərarası mənəvi və ictimai körpü qurmağa nail olmuşdur. O, simvolik obrazlar (xallı gürzə, ölüm mələyi), milli kolorit və etnoqrafik elementlər sayəsində həmin dövrün canlı, dolğun mənzərəsini təqdim etmişdir. Mifik obrazlara istinad, bədii ümumiləşdirmələrlə əsərlərin estetik dəyərini artırmış, tarixdən qaynaqlanan faktları siyasi, sosial və mənəvi-əxlaqi kontekstlərdə təhlilə cəlb etmişdir. Aydın olur ki, tarixilik Mustafa Çəmənli yaradıcılığının əsas istiqamətlərindən biri olaraq müxtəlif mövzu və problemlərin bədii-fəlsəfi və obyektiv təqdimində aparıcı rol oynayır;

9. M.Çəmənli yaradıcılığının ikinci mərhələsində azərbaycançılıq ideyasının təbliği və onun əsas mənbəyi olan

vətənpərvərlik hissinin aşılanması aparıcı yer tutur. Yazıçı qələmə aldığı əsərlərində hər bir fərdi vətənə sahib çıxmağa, onu qorumağa səsləmiş, milli həmrəylik və dövlətçilik düşüncəsini ön plana çəkmişdir. Bir sözlə, "nümunəvi vətəndaş" tezisi onun Müstəqillik dövrü yaradıcılığının əsas ideya-estetik xəttini təşkil edir. Bu yanaşma ilə müəllif öz xalqına, dövlətinə, millətinə və söz yaddaşına olan sevgisini, bağlılığını bədii şəkildə ifadə etmişdir;

10. Mustafa Çəmənli sovet ideologiyasından uzaqlaşmış obrazlar – Soltan, Qara Hümmət, Bədəl və b. vasitəsilə milli və bəşəri insan idealını, eləcə də zaman və mühitin doğurduğu problemlərin mümkün həlli yollarını təqdim etmişdir. Bu obrazlar vasitəsilə yazıçı mənəvi deformasiyaya uğrayan cəmiyyətin təhlilini verir, əxlaqi-sosial böhranın səbəblərini göstərir və bu problemlərin həlli üçün fərd və cəmiyyət kontekstində yol axtarır. Nəticədə, M.Çəmənlinin qəhrəmanları yalnız bədii obraz deyil, həm də ideya daşıyıcısıdırlar.

Mərhələli inkişaf yolu keçən Mustafa Çəmənli yaradıcılığı müasir Azərbaycan ədəbiyyatında mövzu, ideya və bədii forma baxımından seçilən, özünəməxsus dəst-xətti ilə fərqlənən sənət hadisəsidir. Yazıçının bədii və sənədli əsərləri təkcə fərdi insan talelərini deyil, həm də cəmiyyətin mənəvi-əxlaqi problemlərini, milli yaddaşın qorunması və vətəndaş məsuliyyəti kimi mühüm ideyaları əks etdirir. Onun yaratdığı obrazlar sadəcə bədii-estetik funksiyanı yerinə yetirmir, eyni zamanda ictimai fikir və mənəvi dəyərlərin daşıyıcısı kimi yazıçının obyektiv mövqeyini dolğun şəkildə ifadə edirlər.

**Tədqiqatın əsas məzmunu və müddəaları müəllifin Azərbaycanda və xarici ölkələrdə dərc edilmiş aşağıdakı məqalələrində və iştirak etdiyi konfransların materiallarında öz əksini tapmışdır:**

1. Babayeva, A.N. Sənədli nəsrin problemləri / Sumqayıt: SDU-nun Elmi xəbərlər jurnalı, Sosial və humanitar elmlər bölməsi, –2017, –c.13, №2, –s.29-35

2. Babayeva, A.N. Mustafa Çəmənlinin “Ölüm mələyi” əsərində qadın obrazları // Sumqayıt: SDU-nun Elmi xəbərlər jurnalı, Sosial və humanitar elmlər bölməsi, – 2018, –c.14, №4, – s.33-36

3. Babayeva, A.N. Mustafa Çəmənli yaradıcılığında folklor motivləri / Müasir dövrdə Heydər Əliyevin dövlətçilik modeli: reallıqlar və faktlar” mövzusunda Beynəlxalq Elmi-praktik konfrans, –Bakı: Odlar Yurdu, – 08 may, – 2018. –s.21-22

4. Babayeva, A.N. Mustafa Çəmənlinin yaradıcılığında Azərbaycançılıq ideologiyası / “Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu” mövzusunda Beynəlxalq Elmi Konfrans, –Sumqayıt: Sumqayıt Dövlət Universiteti, – 4-5 dekabr, – 2018. –s.415-417

5. Babayeva, A.N. Mustafa Çəmənlinin dili / “Elmlərarası inteqrasiya: linqvodidaktik, linqvokulturoloji və psixolinqvistik aspektlər” mövzusunda Beynəlxalq Elmi Konfrans. –Sumqayıt: Sumqayıt Dövlət Universiteti, –19-20 dekabr, –2019, –s.419-421.

6. Babayeva, A.N. M.Çəmənlinin “Yaddaş” povestində Səlimovun mənəvi-əxlaqi deqredasiyası / “Cəmiyyətə inteqrasiya və sosial adaptasiya: nəzəri və praktik aspektlər” mövzusunda Respublika Elmi Konfransı, –Sumqayıt: Sumqayıt Dövlət Universiteti, –26-27 noyabr, – 2020, – s.147-151.

7. Babayeva, A.N. Qarabağ probleminə M.Çəmənli yanaşması // –Bakı: Filologiya məsələləri, – 2022. № 2, – s. 302-310.

8. Babayeva, A.N. Yeni qəhrəman axtarışı / Sumqayıt: SDU-nun Elmi xəbərlər jurnalı, Sosial və humanitar elmlər bölməsi, –2022, –c.18, №1, –s.35-42

9. Babayeva A.N. Bədii sözün süzgəcindən keçən tarix // -Bakı: Filologiya məsələləri, –2022. № 10, –s. 355-365.

10. Бабаева, А.Н., Хамзаева С.С. Трансформация исторических героев в Азербайджанских литературных произведениях / Вестник Волжского университета имени В.Н.Татищева. -Тольятти: –2022, № 2, том 2, – с.64-72

11. Babayeva A.N. Tarixi roman janrının inkişafında “Xallı gürzə” əsərinin yeri // Naxçıvan: Naxçıvan Universitetinin Elmi xəbərlər jurnalı, – 2022, № 4 (28), –s. 114-121

12. Babayeva, A.N. Mustafa Çəmənli yaradıcılığında Qarabağ mövzusu / Qarabağın tarixi: siyasi, iqtisadi, mədəni aspektlər" mövzusunda Beynəlxalq Elmi Konfrans. –Sumqayıt: Sumqayıt Dövlət Universiteti, – 17-18 mart, – 2022, №1, –s.387-390.

13. Бабаева, А.Н. Мифологическое мышление в художественном тексте (По материалам произведений М.Чеменли) / II Международная научно-практическая конференция «Слово о Слове: исследования молодых учёных-филологов», Астрахань, – 8 апреля, – 2022 г. – с.135-140

14. Babayeva, A.N. Mənəvi-əxlaqi dəyərlərin Mustafa Çəmənli yaradıcılığında inikası ("Dəhliz" və "İstək" hekayələri əsasında) / "Qloballaşma şəraitində müəllim şəxsiyyətinin formalaşdırılmasında pedaqogika və psixologiya elmlərinin yeri və rolu" mövzusunda Respublika Elmi Konfrans, – Sumqayıt: Sumqayıt Dövlət Universiteti, – 28-29 aprel, –2022. – s.42-44.

Dissertasiyanın müdafiəsi 17 10 2025-ci il tarixində saat 12[00] Sumqayıt Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Sumqayıt şəhəri, AZ5008, Sumqayıt şəhəri, 43-cü məhəllə Sumqayıt Dövlət Universiteti

Dissertasiya ilə Sumqayıt Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Sumqayıt Dövlət Universitetinin rəsmi saytında (https://sdu.edu.az/en) yerləşdirilmişdir.

Avtoreferat 11 09 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.09.2025
Kağızın formatı: 60*84/1/16
Həcm: 40923
Tiraj:100